BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 *Humanitar elmlər seriyası* 2010

# AZƏRBAYCAN RESPUBLİKASININ NATO PARLAMENT ASSAMBLEYASI İLƏ ƏLAQƏLƏRİ

**K.Z.HƏSƏNOVA**
***Bakı Dövlət Universiteti***
***vysala@rambler.ru.***

*Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Avropa və Avrotlantik siyasi, iqtisadi və hüquqi qurumlarına, habelə təhlükəsizlik strukturlarına inteqrasiyaya səy göstərərək onlarla mümkün qədər sıx münasibətlər qurmağa çalışır. Bu baxımdan Avroatlantika məkanının mühüm təşkilatlarından biri olan NATO ilə münasibətlərin yaradılması və inkişaf etdirilməsi xüsusi əhəmiyyət kəsb edir.*

Qərb dövlətlərinin hərbi-siyasi bloku kimi meydana gəlmiş Şimali Atlantika Müqaviləsi Təşkilatı (NATO)1949-cu ilin aprelin 4- də ABŞ, Böyük Britaniya, Fransa, İtaliya, Belçika, Norveç, Kanada, Niderland, Lüksemburq, Portuqaliya, Danimarka və İslandiya arasında bağlanan müqavilə əsasında yaradılıb. NATO- sülhün qorunmasını və azadlıqların müdafiəsini siyasi həmrəylik yolu ilə təmin edən və üzvlərinə qarşı yönəlmiş istənilən aqressiya formalarının dəf edilməsini, lazım gəldikdə hərbi gücdən istifadə edilməsini nəzərdə tutan müstəqil dövlətlərin alyansıdır. Alyans təkcə Avrotlantik məkanda deyil, onun hüdudlarından kənarda da təhlükəsizlik məsələlərinə cavabdehlik funksiyasını üzərinə götürüb. NATO- nun üzvü olan bütün ölkələr Şimali Atlantika İttifaqı çərçivəsində siyasi əməkdaşlığın bərabərhüquqlu iştirakçılarıdır və Şimali Atlantika müqaviləsi üzrə bərabər öhdəliklərə malikdirlər. NATO yaranandan bu günədək bir neçə dəfə genişlənmə prosesindən keçib. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya, 1999-cu ildə Macarıstan, Çexiya və Polşa, 2004-cü ildə Rumıniya, Bolqarıstan, Slovakiya, Sloveniya, Baltikyanı dövlətlər - Latviya, Litva və Estoniya 2009- cu ildə Albaniya və Xorvatiya NATO-ya üzv olub. Beləliklə, hazırda NATO-ya üzv olan dövlətlərin sayı 28-ə çatır. Əslində NATO-nun özünün ənənəvi coğrafi nəzarət zonasından kənara çıxması Balkan münaqişəsinin nizama salınması tarixindən başlanıb. Təşkilatın yaranması anından onun hərbi birləşmələrinin Bosniya və Hersoqavinada istifadə olunmasına qədər Alyansın məsuliyyət zonası ciddi surətdə üzv dövlətlərin əraziləri ilə məhdudlanıb.Yalnız iştirakçı dövlətlərin ərazisinə hücum 1949-cu il Vaşınqton müqaviləsinin 5-ci maddəsi üzrə qarşılıqlı yardım haqqında öhdəliyi hərəkətə gətirə bilər. Təşkilatın Balkanlardakı fəaliyyəti isə bu coğrafi həddi adlamışdı.

Təşkilatın məqsəd və vəzifələri öz əksini preambula və 14 maddədən ibarət olan Şimali Atlantika müqaviləsində tapıb. 1949-cu ilin aprelində bağlanan Şimali Atlantika Müqaviləsi Şimali Atlantika İttifaqının hüquqi və müqavilə əsasını təşkil edir.Təşkilat BMT Nizamnaməsinin müstəqil dövlətlərin individual və ya kollektiv

müdafiə hüququnu təsdiq edən 51-ci maddə əsasında yaradılıb.

Müqavilənin preambulasında deyildiyi kimi müttəfiqlərin məqsədi "bütün Şimali Atlantika zonasında dinc və dostluq münasibətlərini inkişaf etdirməkdir (4, 127). NATO hökümətlərarası təşkilatdır, onun bütün üzvləri öz suverenliyini və müstəqilliklərini qoruyurlar. Vaşinqton müqaviləsində bloka üzv olan ölkələrin hər hansı birinə təhlükə yarandığı təqdirdə iştirakçı dövlətlər arasında məsləhətləşmələrin aparılması nəzərdə tutulub. Müqavılənun 5-ci maddəsində kollektiv özünümüdafiə məsələlərindən bəhs olunur. Qeyd edək ki, həmin müddəa BMT Nizamnaməsində də nəzərdə tutulub. Həmin maddədə qeyd olunur ki, NATO-nun bir və ya bir neçə üzvünə silahlı hücum olarsa,buna təşkilatın bütün üzvlərinə yönəlmiş hücum kimi baxılacaq. Müqavilənin 7-ci maddəsində böhranların tənzimlənməsi məsələləri də öz əksini tapır.

Şimali Atlantika İttifaqı yarandığı vaxtdan Avropada ədalətli və möhkəm sülhün bərqərar olunmasına yönəldilmiş fəaliyyət həyata keçirir. Şimali Atlantika Müqaviləsi Təşkilatı müasir dövrün reallıqlarına, xüsusən yeni təhlükələri nəzərə almaqla tam surətdə uyğunlaşdırılıb. Ümumiyyətlə, təhlükə mənbələrinə, münaqişələrə dair NATO-nun siyasəti xüsusi əhəmiyyət kəsb edir. NATO müasir dünyada formalaşan təhlükəsizlik arxitekturasının həlledici elementinə çevrilməkdədir. Təşkilatda baş verən struktur və konseptual xarakterli transformasiyalar nəticəsində Alyans öz mahiyyəti etibarı ilə siyasi-hərbi təşkilata çevrildi. Qeyd edək ki, Şimali Atlantika İttifaqının fəaliyyətinin əsas prinsipi üzv dövlətlərin əməkdaşlığında qəbul edilmiş ümumi öhdəliklərə sadiqlikdir. İngilis və fransız dilləri NATO-nun rəsmi dilləridir. NATO-nun mənzil-qərargahı Brüsseldə (Belçika) yerləşir (6). 1991-ci ildə keçirilən Roma Sammitində qəbul olunan sənədlər NATO-nun gələcək fəaliyyətinin əsasını təşkil etdi. Sammitdə NATO-nun yeni strateji konsepsiyası qəbul edildi. Təşkilatın bu vaxta qədər 5 strateji konsepsiyası qəbul edilib. Bu konsepsiyalarla eyni qüvvəyə malik Şimali Atlantika Alyansının gələcək fəaliyyətinin əsaslarının bir hissəsini təşkil edən bir hüquqi sənəd- 1967-ci ilin oktyabrında Armel planı da qəbul edilib.Armel planında iki paralel siyasi xəttin aparılması nəzərdə tutulurdu ki, bunlardan biri müdafiənin lazımi səviyyədə saxlanılması, digəri isə Şərqlə Qərb arasındakı münasibətlərdə gərginliyin azaldılması idi. Bu təşkilatın strateji konsepsiyasındakı dəyişikliklərin əsas xüsusiyyətlərindən biri beynəlxalq təhlükəsizliyin təmin edilməsi üçün dövlətlərarası münasibətlərdə qarşılıqlı inama və əməkdaşlığa üstünlük verməsidir.

Təşkilatın ali rəhbər orqanları NATO Şurasının Sessiyası, Hərbi Planlaşdırma Komitəsi və Hərbi Komitədən ibarətdir. Nüvə Müqaviləsi Komitəsi təşkilatın mühüm orqanlarından biridir. NATO hərbi təşkilat kimi müasir dünyada siyasi vəziyyətə getdikcə daha çox təsir göstərir. Qeyd edək ki, NATO yalnız hərbi təşkilat deyil, bu təşkilatın strukturlarında siyasi, iqtisadi, elmi, texniki, ideoloji və s. komitələr vardır. NATO-nun elm sahəsinə aid fəaliyyətinə gəldikdə qeyd edə bilərik ki, təşkilatın bu sahədə iki proqramı var. Bunlardan birincisi, təşkilatın Elm Komitəsinin Elm Proqramı, ikincisi Müasir Cəmiyyətin problemləri üzrə Komitənin həyata keçirdiyi (MCPK) proqramdır. NATO müasir dünyanın üzləşdiyi çoxsaylı problemlərin kompleks həllinə çevik iş mexanizminə malik beynəlxalq təşkilatdır.

NATO-nun qərarları üzv dövlətlərinin məsləhətləşmələrindən sonra konsensus əsasında qəbul olunur. Alyansın fəaliyyətində aparıcı rolu ABŞ tutur. Tarixi təcrübə təsdiq edir ki, NATO-nun bu günə qədər həyata keçirdiyi siyasət ABŞ-ın milli və qlobal maraqlarına söykənir. NATO-ya üzvlük məsələləri kollektiv təhlükəsizlik, de-

mokratiya, konsensus və qarşılıqlı təhlükəsizlik prinsiplərinə əsasən həyata keçirilir. Dünyanın ən inkişaf etmiş ölkələrinin İttifaqı olan NATO ilə bu sahədə əməkdaşlıq Azərbaycan Respublikası üçün faydalıdır.

Bu əməkdaşlıq hələ 1992-ci ildən, digər 37 ölkə ilə birlikdə Azərbaycanın da sonralar Avrotlantik Tərəfdaşlıq Şurasına çevrilmiş Avratlantik əməkdaşlıq Şurasına qoşulduğu vaxtdan başlayıb (5, 20). 1994-cü ilin 10-11yanvarında NATO üzvü olan ölkələrin dövlət və hökümət başçılarının Brüsseldə görüşü keçirildi. Daha sonra görüşün yekunlarına dair bəyanat qəbul olunub. Sənəddə beynəlxalq və regional siyasi şəraitin aktual problemləri barədə NATO- nun mövqeyi əks olunub. Bəyanatın 21-ci bəndində NATO- nun üzvü olan ölkələr Güney Qafqazda vəziyyət haqqında öz mövqelərini bildirib. Bəyanat yenə də öz mülayimliyi baxımından əvvəlkilərindən fərqlənmirdi. Güc işlədilməsi ilə ərazilər ələ keçiləririlməsini pisləyən NATO ölkələri Ermənistan, Azərbaycan və Gürcüstanın ərazi bütövlüyünə, müstəqilliyinə, suverenliyinə hörmət edilməsini, həmin bölgədə sülhün, sabitliyin bərqərar olunması üçün zəruri hesab edir (3, 66).

Əsas məqsəd NATO-nun Güney Qafqaz strategiyasında üç respublika ilə eyni dərəcədə əməkdaşlığın planlaşdırılmasıdır. NATO Güney Qafqaz respublikaları ilə ayrı-ayrılıqda yaratdığı münasibətlərin bir-birinə xələl gətirəcək istiqamətdə inkişafına imkan verməməyə çalışır. Təşkilatın Azərbaycan, Gürcüstan və Ermənistan arasında regional formatda əməkdaşlıq təklifləri də bu məntiqdən qaynaqlanır ( 7, 102-108). Azərbaycan Avropa və Avroatlantik birliyin dəyərləri ilə bölüşür, çoxtərəfli transatlantik təhlükəsizlik əməkdaşlığı proqramlarını inkişaf etdirərək Avropa qitəsində və onun sərhədlərindən kənarda təhlükəsizlik və sabitliyə töhvə verir.

1994-cü il mayın 4-də Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev NATO-nun Brüsseldəki mənzil qərargahına səfəri zamanı "Sülh naminə tərəfdaşlıq" proqramının Çərçivə sənədini imzaladı. SNT hərbi sektorda şəffaflıq və strateji müdafiənin planlaşdırılmasına dəstək verir. Xatırladaq ki, Azərbaycan 1994- cü ildə NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulan ilk ölkələrdən biri olub və Avroatlantik tərəfdaşlıq Şurası və digər sənədlər vasitəsilə NATO ilə mümkün tərəfdaşlıq mexanizmlərindən tam şəkildə bəhrələnir. Heydər Əliyevin imzaladığı "Sülh naminə tərəfdaşlıq" haqqında "Çərçivə" sənədi və Azərbaycanın bu proqrama qoşulması münasibətlərin fəallaşmasında ciddi stimul rolunu oynadı. Həmin dövrdən başlayaraq Azərbaycan-NATO əlaqələrinin inkişaf etdirilməsi üçün şərait yarandı.

"Sülh naminə tərəfdaşlıq" proqramı aşağıdakı məqsədlərin həyata keçirilməsini nəzərdə tutur:

1. Milli müdafiənin planlaşdırılması və büdcənin hazırlanması ;
2. Silahlı qüvvələr üzərində demokratik nəzarətin təmin olunması ;
3. Milli konstitusiyanın müddəaları nəzərə alınmaqla BMT və ATƏT-in himayəsi altında sülhməramlı hərbi əməliyyatlarda iştirak;

Sülhyaratma, xilasetmə, axtarış, humanitar və başqa istiqamətlərdə əməliyyatların keçirilməsini, milli hazırlığı yüksəltmək məqsədilə NATO ilə hərbi sahədə əlaqələr qurmaq;

Qeyd edək ki, bu proqram müdafiə sahəsində əməkdaşlığın və hərbi sahədə qarşılıqlı fəaliyyətin inkişafı üçün uğurlu mexanizmdir və sülhyaratma əməliyyatlarında iştirak etmək imkanı verir. Proqramda tərəfdaş ölkələr üçün bir sıra məcburi şərtlər irəli sürülüb. Hərbi idarələr üzərində mülki nəzarətin təmin olunması, hər il hərbi büdcələrin dərc edilməsi, əsas döyüş sistemlərini blokun standartlarına uyğun

təkmilləşdirilməsi, qoşunların döyüş hazırlığı proqramına ingilis dilinin tədrisinin daxil edilməsi və s. məcburi şərtlər öz əksini tapıb. 1996-cı ildə Azərbaycan Respublikasının Fərdi Tərəfdaşlıq Proqramına qoşulması ilə ikitərəfli münasibətlər hərbi və siyasi sahələrlə yanaşı ölkə həyatının digər sahələrini, o cümlədən təhlükəsizlik sektorunu da əhatə etməyə başladı. Bu proqram silahlı qüvvələr və digər müvafiq idarələr arasında qarşılıqlı tanışlığın və qarşılıqlı praktik əlaqələrin inkişaf səviyyəsinin yüksəldilməsinə əhəmiyyətli töhvə verib. Həmin proqram çərçivəsində Azərbaycan nümayəndələri NATO-nun təxminən 300 tədbirində iştirak edir. Azərbaycanın NATO ilə əməkdaşlığının mahiyyəti ondan ibarətdir ki, bu qurumun imkanlarından istifadə edərək beynəlxalq təhlükəsizlik sisteminə inteqrasiya edə bilər. Fərdi tərəfdaşlıq planında işirak Azərbaycanın NATO ilə əməkdaşlığı sahəsində dönüş nöqtəsi oldu.

1997- ci ildə Azərbaycan MDB dövlətləri arasında ilkin dövlət olaraq, Planlaşdırmaya və Analiz (PAP) prosesinə qoşuldu. PAP ilə əlaqədar olan tədbirlər əməliyyat üçün NATO-nun müdafiə planlaşdırma sisteminə Azərbaycanın daha da yaxınlaşması məqsədini daşıyır. 1999-cu ilin aprelində Vaşinqtonda NATO-nun 50 illik yubileyinə həsr olunmuş dövlət və hökümət başçılarının sammiti Alyans tarixində dönüş nöqtəsi oldu.Bunu sammit zamanı qəbul edilmiş sənədlər əsasında söyləmək mümkündür.NATO-nun yeni strateji konsepsiyasının qəbul edilməsi əhəmiyyətli hadisə oldu.

NATO rəhbərliyi Azərbaycan Respublikası ilə əməkdaşlığa xüsusi əhəmiyyət verir. Beləki, 1999-cu ilin may ayında NATO Parlament Assambleyasının Polşada keçirilən sessiyasında Azərbaycan Respublikası bu təşkilatda müşahidəçi statusu alır. Azərbaycanın NATO Parlament Assambleyasında müşahidəçi statusu ilə təmsil olunması mühüm əhəmiyyət kəsb edir. Assambleyanın maraq sahələri arasında Azərbaycanı maraqlandıran məsələlər var. Bu məsələlərdə Azərbaycanın öz fikirlərini çatdıra bilməsi, hazırlanan hesabatlara və qərarlara təsir edə bilməsi mühümdür. Xatırladaq ki, Azərbaycan Respublikası NATO Parlament Assambleyasında Milli Məclis sədri heyəti ilə təmsil olunur. Azərbaycan nümayəndə heyəti Assambleyanın bütün tədbirlərində iştirak edir. NATO Parlament Assambleyası çərçivəsində müxtəlif nümayəndə heyətlərinin Azərbaycana səfərləri, müxtəlif forum və sessiyalarda keçirilən qarşılıqlı faydalı görüşlər, aparılan danışıqlar sözügedən təşkilatla Azərbaycan arasında əməkdaşlığın genişləndirilməsi sahəsində əhəmiyyətlidir. NATO Parlament Assambleyasının 2002-ci il noyabrın 15-19-da İstanbulda keçirilmiş 48-ci illik sessiyası zamanı Assambleyanın Daimi Komitəsi noyabrın 18-də keçirilən həmin iclasda Azərbaycan Respublikasına təşkilatda assosiativ üzv statusunun verilməsi barədə qərar qəbul etdi. Bu qərar NATO Parlament Assambleyasının noyabrın 19-da keçirilən iclasında rəsmən bəyan edildi. Beləliklə, NATO–Azərbaycan münasibətlərində yeni mərhələnin başlanğıcının əsası qoyuldu. Bu statusu alanadək Azərbaycan Respublikası bu qurumun tədbirlərində qonaq qismində iştirak edib. Lakin bu statusu aldıqdan sonra Azərbaycan təkliflər vermək, çıxışlar etmək, qərar layihəsinə dəyişiklik etmək imkanına malik oldu (1).

2002-ci ildən bu günə kimi ildə iki dəfə (yaz, payız) NATO Parlamen Assambleyasının iclaslarında Azərbaycan Respublikasının Milli Məclisinin nümayəndə heyəti iştirak edir və Azərbaycanla bağlı problemləri NATO-ya üzv və tərəfdaş ölkələrin parlamentlərinin nəzərinə çatdırır. Azərbaycan Respublikası NATO ilə əməkdaşlığın inkişafında maraqlı olduğunu konkret praktiki tədbirləri ilə də sübut edib. Kosovo və Əfqanıstanda beynəlxalq sülhməramlı qüvvələr tərkibində öz missiyasını uğurla yerinə yetirən Azərbaycan 2003-cü ilin mayında koalisiya qüvvəlirinin tərkibində İraqda

keçirilən sülhməramlı əməliyyatlarda iştirak haqqında qərar qəbul etdi.

Azərbaycan bir sıra fəaliyyət planları əsasında NATO ilə əməkdaşlıq edir. Bura Fərdi Tərəfdaşlıq üzrə Fəaliyyət Planı, Planlaşdırma və Analız Prosesi proqramı və Fərdi Tərəfdaşlıq proqramı aiddir.Təşkilat tərəfindən irəli sürülən həmin sənədlərin əsas məqsədi Azərbaycanın təhlükəsizlik və müdafiə strukturlarının Avroatlantik standartlara inteqrasiyasıdır. Bu proqramlar yerinə yetirildikdən sonra tərəfdaş dövlətə NATO-nun bərabərhüquqlu üzv olmaqda sonuncu mərhələ olan üzvlük üzrə Fəaliyyət Planı irəli sürür (2, 2). "Azərbaycan Respublikasının NATO ilə Tərəfdaşlıq üzrə əməliyyat Planı" Prezident İlham Əliyevin 3 avqust 2005-ci il tarixli sərəncamı ilə təsdiq olundu. Bununla da NATO–Azərbaycan əməkdaşlığı öz inkişafının həm keyfiyyət, həm də həyata keçirilən tədbirlər baxımından daha səmərəli mərhələyə qədəm qoydu. Xatırladaq ki, FTƏP mexanizmi 2002-ci ildə NATO-nun Praqa zirvə görüşündə təsis olunub. Bu proqrama qoşulmaq barədə rəsmi məktub təşkilatın o zamankı baş katibi Lord Robertsonun 15 may 2003-cü il tarixində Azərbaycan Respublikasına səfəri zamanı ona verildi.

Azərbaycan–NATO əlaqələrinin inkişafı Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin dövründə daha da sürətləndi. Azərbaycanın Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planı (FTƏP) təqdimat sənədi İlham Əliyevin 19 may 2004-cü il tarixində NATO-nun mənzil qərargahına səfəri zamanı təşkilatın baş katibi Yaap de Hup Şxefferə təqdim olundu.

Bununla belə, Azərbaycanın Alyansa daxil olması prosesində bir sıra maneələr mövcuddur. NATO region dövlətləri arasında Ermənistandan fərqli olaraq Azərbaycana və Gürcüstana xüsusi əhəmiyyət verir. Lakin Qafqazın sərt və mürəkkəb geosiyasi iqlimi və ərazisində münaqişə ocağının olması faktı Azərbaycanın NATO – ya daxil olması yolunda əsas maneədir. Ona görə ki, NATO-nun təcavüzkar Ermənistanın himayədarı olan Rusiya ilə toqquşmaq planları olduqca riskli ola bilər. Qeyd edək ki, Alyans nizamnaməsində deyilir ki, digər ölkələrə ərazi iddiasında olan və ya digər ölkələr tərəfindən ərazi iddialarının obyekti olan ölkələr bloka qəbul edilə bilməz. Dağlıq Qarabağ münaqişəsi bu təşkilata daxil olmaq yolunda ən ciddi maneə sayılır.

Ümumiyyətlə, Azərbaycanın NATO ilə əməkdaşlıqdan son məqsədi bütün Avrotlantika zonasında sülhün və sabitliyin möhkəmləndirilməsinə öz tövhəsini vermək və bilavasitə təşkilatın fəal iştirakı ilə yaradılacaq hər hansı bir təhlükəsizlik sistemində özünə yer tapmaqdan ibarətdir. Azərbaycan-NATO münasibətlərinin inkişaf səviyyəsi, eləcə də müxtəlif proqramlar çərçivəsində əməkdaşlığın mövcud durumu yüksək qiymətləndirilir.

## ƏDƏBİYYAT


1. Azərbaycan NATO PA-nın assosiativ üzvüdür. "Azərbaycan" qəz., Bakı, 2002, 20 noyabr.
2. Cəfərli M. NATO-Azərbaycan əməkdaşığında Milli Təhlükəsizlik Nazirliyinin rolu // Diplomatiya və hüquq. Bakı, 2007, №1(007), s.2-6.
3. Əzimli A.Azərbaycan-NATO münasibətləri (1991-2000). Bakı: Adiloğlu, 2001, 226 s.
4. NATO nə deməkdir? // Dirçəliş-XXI əsr jurnalı, Bakı, 2002, №58. s.125-135.
5. NATO və Azərbaycan: strateji tərəfdaşlıq və inteqrasiya // Dünya İnformasiya analitik jurnalı, Bakı, 2007, №4, s.22-23.
6. www.wikipedia.org
7. Чернявский С. Южный Кавказ в планах НАТО// "Международная жизнь", 1998, № 9 s.102-108.

## ОТНОШЕНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ С ПАРЛАМЕНТСКОЙ АССАМБЛЕЕЙ НАТО

**К.З.ГАСАНОВА**

**РЕЗЮМЕ**

Политические и военные отношения Азербайджана с НАТО являются приоритетом внешней политики Азербайджанской Республики. НАТО – не только политическая и военная организация, но и международная, обладающая специализированными структурами для решения различных проблем, возникающих в современном мире. Альянс предлагает научные, экологические и гражданские программы для сотрудничества с партнерами из Центральной и Восточной Европы. Это сотрудничество с НАТО в указанных областях приводит к обмену опытами, что является полезным для Азербайджана.

## RELATIONS BETWEEN THE AZERBAIJAN REPUBLIC AND PARLIAMENT ASSEMBLY OF NATO

**K.Z.HASANOVA**

**SUMMARY**

Political – military relations with NATO is the priority of the foreign policy of the Azerbaijan Republic. NATO is not only a political- military organization but also the international organization possessing specialized structures to solve various problems arising in the modern world. The alliance proposes scientific, ecological and civil programs for cooperation with partners from Central and Eastern Europe. İt is nessessary for Azerbaijan to exchange experiences with NATO in these fields.